

*Fəxrəddin*
*TEYYUB*

# Ürəyimin gülən vaxtı olmadı, Qan-qadalı illər gördüm dünyada

## GƏTİRMİŞƏM

Qardaşım Məmmədin ad gününə

*Arzum quş kimidi, qonub dil üstə,*
*Gümanım mürgülü, ümid yol üstə.*
*Ürəyim köklənib sarıtel üstə,*
*Sinəmdə nəğməli saz gətirmişəm.*

*Həyat zülüm imiş, başdan, ay qağa,*
*Çıxır çörəyimiz daşdan, ay qağa.*
*Mənim xoşum gəlmir qışdan, ay qağa,*
*Sənə gül-çiçəkli yaz gətirmişəm.*

*Həya gözləmişəm öz arım olub,*
*Yaxşı dost ətirli baharım olub.*
*Etibar, sədaqət şüarım olub,*
*Açıq alın, təmiz üz gətirmişəm.*

*Sözün hənirini duyduğum andan,*
*Sözə vurulmuşam ürəkdən, candan.*
*İkinci Şıxlıdan, şair Qurbandan,*
*Cığır gətirmişəm, iz gətirmişəm.*

*Ruhunu oxşasın çöl də, çəmən də,*
*Qayğılar salmasın səni kəməndə.*
*Hədiyyə gətirən sağ olsun, mən də*
*İlahi möcüzə, söz gətirmişəm.*

## XƏBİSLƏR DÜNYANIN EVİNİ YIXDI

*Yıxmaq dəbə mindi, yarışda hamı,*
*Bəxti, taleyiylə barışda hamı.*
*Tanrının işinə qarışdı hamı,*
*Xəbislər dünyanın evini yıxdı.*

*Alışdıq dəhşətin neçə növünə,*
*Bir iş gördülər ki, adam sevinə.*
*Donuzu saldılar Allah evinə,*
*Xəbislər dünyanın evini yıxdı.*

*Külək əsməsə də, əsdirən nə çox,*
*Baş niyə kəsilsin, kəsdirən nə çox.*
*Şeytanı qəlbində gəzdirən nə çox,*
*Xəbislər dünyanın evini yıxdı.*

*Doğma, əziz bildim vallah hər yadı,*
*Şəhid atasının dərdi dəryadı.*
*Göylərə ucaldı ana fəryadı,*
*Xəbislər dünyanın evini yıxdı.*

*Yalanı saxlama, qoy getsin, yol ver,*
*Əyilməz əyilər, əlinə pul ver.*
*Qeyrət bazarında şıdırğı alver,*
*Xəbislər dünyanın evini yıxdı.*

*Səxavət yolunu tamah bağladı,*
*Kasıbı ac qoydu, sinə dağladı.*
*Ay şivən qopartdı, Günəş ağladı,*
*Xəbislər dünyanın evini yıxdı.*

## KÖNLÜM

*Qüssədən gözümün yaşı sellənib,*
*Elə bil başıma küllər ələnib.*
*Sənsiz ömrüm, günüm qəmə bələnib,*
*Özünə yer tapmır havalı könlüm.*

*Neçə xoş xatirə ballanıb gedib,*
*Duyğum xəzəl kimi xallanıb gedib.*
*Tanrı dərgahına yollanıb gedib,*
*Sən xəstə olandan dualı könlüm.*

*Dilin yox, deyəsən göyəm, yerəm mən,*
*Sən axı ikisən, demə birəm mən.*
*Nə vaxtdı səsini eşitmirəm mən,*
*Çalınır həsrətin qavalı, könlüm.*

*Eh, hardan biləsən kim nə haydadı,*
*Biri qarlı qışda, bir yaydadı.*
*Nə dağdı, nə təpə, yumruq boydadı,*
*Bilməyir neyləsin zavallı könlüm.*

## YAŞAMIŞAM

*Kotana tərim düşüb,*
*Alnımdan zərim düşüb.*
*Şırımım dərin düşüb,*
*Xış ömrü yaşamışam.*

*Azmı düşmüşəm dara?*
*Mən hara, xoş gün hara?*
*Həsrət qaldım bahara,*
*Qış ömrü yaşamışam.*

*Biri aradı getdi,*
*Saçın daradı getdi.*
*Qurum qurudu getdi,*
*Yaş ömrü yaşamışam.*

*Tanrıdı kəsən ömrü,*
*Külək tək əsən ömrü.*
*Torpaqda kəsək ömrü,*
*Daş ömrü yaşamışam.*

*Alışdı, yandı sinə,*
*Düşdüm söz həvəsinə.*
*Bir ömür əvəzinə*
*Beş ömrü yaşamışam.*

## DÜNYADA

*Bir ömürdə neçə ömür yaşadım,*
*Bir ömürdə nələr gördüm dünyada.*
*Özgəsinə quyu qazan hər kəsi,*
*Axır bir gün mələr gördüm dünyada.*

*Ürəyində xıltın varsa, üz qaran,*
*Əl tutmaqla ömrün boyu yox aran.*
*İlanı da yuvasından çıxaran,*
*Şirin, şəkər dillər gördüm dünyada.*

*Hər yetənin qızıl taxtı olmadı,*
*Taxt olanda bir az baxtı olmadı.*
*Ürəyimin gülən vaxtı olmadı,*
*Qan-qadalı illər gördüm dünyada.*

*Var gördülər, yollarını azdılar,*
*Haqq deyəni hər gün daşa basdılar.*
*Ədaləti bəzən dardan asdılar,*
*Soyuq əsən yellər gördüm dünyada.*

*Bahar çağı bənd bərəni kəsdirən,*
*Kötükləri beşik kimi gəzdirən.*
*Dərələri əsim-əsim əsdirən,*
*Aşıb daşan sellər gördüm dünyada.*

*Bu təknədi, bu çuvaldı boşalan,*
*Hansı qapı, pəncərədi qış alan?*
*Nə yaxşı ki, səxavətdən beş alan,*
*Çörək verən əllər gördüm dünyada.*

## QOVUR

*Qaçıram, qurumur alnımın təri,*
*Həyat qaçhaqaçdı əzəldən bəri.*
*Anlar, saniyələr dəqiqələri,*
*Gün-günü, ay ayı, il ili qovur.*

*Küçədə o kimdi, ayağı yalın,*
*Yoxdur bir kimsəsi, soruşa halın.*
*İşə bax, qudurğan, bir gönü qalın,*
*Günahsız uşağı, tifili qovur.*

*Qayğı neştəriylə kəsilib heyim,*
*Daha nəyim qalıb, bölməyə nəyim.*
*Sevmirəm kiminsə xətrinə dəyim,*
*Ağzımın içində söz dili qovur.*

*Hər ulduz bir daşdı, Ay da bir qala,*
*Nə ulduz kiçilə, nə Ay alçala.*
*Yağışla dolanda hər çuxur, çala,*
*Külək suyu qovur, su lili qovur.*

*Qəlbimdə həsəd yox, özün bax, hanı?*
*Kim sevər evini özü yıxanı.*
*Yurdu kəc baxanı, əyri baxanı,*
*Axırda yığışıb öz eli qovur.*

*Bələnsin sevgimin şehinə ürək,*
*Sevəndə qoy dönsün şahinə ürək.*
*Dözsə də həsrətin mehinə ürək,*
*Ümidin küləyi nisgili qovur.*

## TELEFONUM

*Yenə də gün gələr, gözün güləcək,*
*Sükut yox olacaq, sözün güləcək.*
*Qış ötüb keçəcək, üzün güləcək,*
*Oxşayar könlünü yaz, telefonum.*

*Arzu var istidi, arzu var sərin,*
*Güman var dayazdı, güman var dərin.*
*Düşdün qarğışına həsrət zənglərin,*
*Nahaq eləyirdin naz, telefonum.*

*Yerini bilmədin qaranın, ağın,*
*Qədrini biləydin təpənin, dağın.*
*Ağlına gəlməzdi unudulmağın,*
*Sənə bu da azdı, az, telefonum.*

*Adam yox, yuxumu yozmağa daha,*
*Görən nə qalıb ki, yazmağa daha.*
*Gedirəm özümü asmağa daha,*
*Get sən də özünü as, telefonum.*

## QIZIL BALIQ DÜŞSÜN BU İL TORUNA

Şair dostum Musa Ələkbərliyə

*Elə bil ki, yaşı mindi, uludu,*
*Söz şahıdı, nökəridi, quludu.*
*Məhəbbətlə, sevgi ilə doludu,*
*Özü boyda ürəyi var Musanın.*

*Danışdırır, kim deyir ki, daş kardı,*
*Qəlbi süfrə, nəyi varsa aşkardı.*
*Bəyaz saçlı Murovdağdı, Qoşqardı,*
*Söykənməyə küräyi var Musanın.*

*Nəfəsi bal, öz körpəcə balandı,*
*Mayası nur, göydən düşüb, qalandı.*
*Əzizləyib, sözə laylay çalandı,*
*Beşiyi var, bələyi var Musanın.*

*Ləpələnən ruh dənizdi, göz mərcan,*
*Ocaq sönsə, kül altında, göz mərcan.*
*Duyğuların bulağında söz mərcan,*
*Şəlalədən ələyi var Musanın.*

*Yaşa baxıb, şükür elə quruna,*
*Meh əssə də, adam gərək qoruna.*
*Qızıl balıq düşsün bu il toruna,*
*Göydə uçsun təb mələdi Musanın.*

## ADAMAM

*Dərədə yaz çağı duman qızımdı,*
*Arzum gümüş kimi, güman qızıldı.*
*Hardan biləydim ki, zaman qızıldı,*
*Mən vaxtı küləyə verən adamam.*

*İşığı bir dünya, Aydı ürəyim,*
*Qapımı döyənə, paydı ürəyim.*
*Çağlayan xeyirxah çaydı ürəyim,*
*Yaxşılıq sarayın hörən adamam.*

*Bəxtəvər günlərim qaldı geridə,*
*Sızlayan könlümü kimsə kiridə.*
*Həsrətim qurudar göyü, yeri də,*
*Dərdimi sinəmə sərən adamam.*

*Axı hasar da var, barıdn özgə,*
*Ayrı rəng yoxdu ki, sarıdan özgə.*
*Yaşımı kim bilər Tanrıdan özgə?*
*Adəmi, Həvvanı görən adamam.*

## KAŞ Kİ, ARANIZDA MƏN DƏ OLAYDIM

*Ucaldı vətənin başı deyirəm,*
*Sevindi qayası, daşı deyirəm.*
*Qurumaz gözümün yaşı deyirəm,*
*İki min yeddi yüz səksən üç şəhid.*

*Bu payız odlandı neçə tərsinə,*
*Oğulsan, bu boyda dərdə gər sinə.*
*Adınız düşəcək tarix dərsinə,*
*İki min yeddi yüz səksən üç şəhid.*

*Düşmənə dağ çəkib ram eylədiniz,*
*Ömrünüz əridi, şam eylədiniz.*
*Vətəni, torpağı tam eylədiniz,*
*İki min yeddi yüz səksən üç şəhid.*

*Hər kəsdən xatirə cığır var, iz var,*
*Bir ömür danışsan, söhbət var, söz var.*
*Hamının qəlbində heykəliniz var,*
*İki min yeddi yüz səksən üç şəhid.*

*Solmasın qoy vətən bağı deyərdi,*
*Alacaq payını yağı deyərdi.*
*Anam sağ olaydı, ağı deyərdi,*
*İki min yeddi yüz səksən üç şəhid.*

*Səngərdə duraydım, öndə olaydım,*
*Dərəyə düşəydim, çəndə olaydım.*
*Kaş ki, aranızda mən də olaydım,*
*İki min yeddi yüz səksən üç şəhid.*

## SƏNDƏN VƏTƏN ƏTRİ GƏLİR, BAŞQANIM

Türkiyə Respublikasının Prezidenti
cənab Rəcəb Tayyib Ərdoğana

*Sönmədi xalqımın döyüş həvəsi,*
*Açıldı həsrətin bağlı qəfəsi.*
*Yandırıb yağını türkün nəfəsi,*
*Sevincdən Qarabağ gülür, başqanım.*

*Çəkin min hörmətlə başa bayrağı,*
*Sancın hər qayaya, daşa bayrağı.*
*Bir ulu millətin qoşa bayrağı,*
*Düşmənin bağrını dəlir, başqanım.*

*Suvardı torpağı axan qanımız,*
*Zəfərə büründü qızıl danımız.*
*Dar gündə Ali Baş Komandanımız,*
*Dərdini səninlə bölür, başqanım.*

*Qalmasın kiminsə əlində yaxa,*
*Arzular ürəkdən ürəyə axa.*
*Türkün uğurunu görəndə bədxah,*
*Gündə neçə dəfə ölür, başqanım.*

*Əzəldən amalı, vərdişi zəfər,*
*Əməli çiçəkdi, hər işi zəfər.*
*Duruşu zəfərdi, yerişi zəfər,*
*Dünyanın sirrini bilir başqanım.*

*Xəzəri seyr eylə, ləpə döyəndə,*
*Günəş cilvələnib özün öyəndə.*
*Bayrağa dönürsən şeir deyəndə,*
*Səndən vətən ətri gəlir, başqanım.*

## BU GÜNDÜ

*Yaz gələr, yenə də qönçə açılar,*
*Gah səhər, gah da ki, gecə açılır.*
*Nə bilim sabahım necə açılar,*
*Ömrümün ən gözəl çağı bu gündü.*

*Gözləmə, kimsədən hay çıxmayacaq,*
*Parlayan ulduzdan pay çıxmayacaq.*
*Bəlkə gələn axşam Ay çıxmayacaq,*
*Ömrümün ən gözəl çağı bu gündü.*

*Adamı üşüdür soyuq baxışlar,*
*Tökür zəhləmizi təzə yağışlar.*
*Daha bir-birinə oxşamır qışlar,*
*Ömrümün ən gözəl çağı bu gündü.*

*Ömür köhlənini sürmüşəm daha,*
*Ömrün sarayını hörmüşəm daha.*
*Mən ki, gördüyümü görmüşəm daha,*
*Ömrümün ən gözəl çağı bu gündü.*

*Həyat, yorur məni hədən, yoldayam,*
*Ağrıyır, sızlayır bədən, yoldayam.*
*Ömrün qürubuna gedən yoldayam,*
*Ömrümün ən gözəl çağı bu gündü.*

## SÖZDÜ

*Kədərin nə yeri, nə beşiyi var,*
*Hər kəsin qəlbində dərd yeşiyi var.*
*Dostların öz evi, öz eşiyi var,*
*Gecələr mənimlə qalanım sözdü.*

*Yaranı alsam da yara dalınca,*
*Heç vaxt qaçmamışam para dalınca.*
*Gecələr düşürəm misra dalınca,*
*Yuxumu gözümdən alanım sözdü.*

*Əzəldən kiməmsə, yenə oyam mən,*
*Necə görürsünüz, elə buyam mən.*
*Hamının gözündə milyonçuyam mən,*
*Varlıdan varlıyam, olanım sözdü.*

*Almışam qəlbimə odu səhərdən,*
*Ümid köhlən atdı, yapış yəhərdən.*
*Məni göy üzünə qaldırır hərdən,*
*Məni odlara da salanım sözdü.*